Ulu Öndərin müdrik zəkası, prinsipial mövqeyi, Azərbaycanın diplomatik uğuru

1996-cı il dekabrın 2-3-də Lissabonda ATƏT-in növbəti Zirvə toplantısının yekun sənədində 53 Avropa ölkəsi tərəfindən Azərbaycanın ərazi bütövlüyü dəstəklənmişdi

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması diplomatiya müstəvisində də məqsədyönlü fəaliyyətin nəticəsində mümkün olub. Müxtəlif beynəlxalq tribunalardan Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasının müstəsna yeri və əhəmiyyətli rolu var. İstər ümummilli lider Heydər Əliyev, istərsə də Prezident İlham Əliyev beynəlxalq tədbirlərdə, o cümlədən sammitlərdə Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi və Ermənistanın işğalçılıq siyasətinin pisləndiyi qətnamələrin və bəyanatların qəbul edilməsinə nail olublar ki, bu da ölkəmizin beynəlxalq mövqeyinin möhkəmlənməsini təmin edib. Bu baxımdan, 2-3 dekabr 1996-cı il tarixlərində keçirilən ATƏT-in Lissabon sammitində Azərbaycanın mühüm nailiyyətini xüsusi vurğulamaq lazımdır. Ekspertlər haqlı olaraq Lissabon sammitini diplomatik qələbələrin başlanğıcı kimi dəyərləndirirlər.

Azərbaycan-Ermənistan münaqişəsinin nizama salınmasının baza formulu məhz bu görüşdə müəyyən edildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev çevik və dəqiq diplomatik addımları ilə ölkəsinin dünya birliyi tərəfindən müdafiəsinə nail oldu. Ermənistan istisna olmaqla, ATƏT-in üzvü olan 53 Avropa ölkəsi Dağlıq Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi. Bu prinsiplər bunlardır: Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusunun verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi. Bununla da münaqişənin sülh yolu ilə həlli üçün dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən ədalətli hüquqi bünövrə yaradıldı və vasitəçilərin vəzifələri müəyyən olundu.

"ATƏT-in Lissabon sammitinin iclası yenicə başa çatmışdır. Azərbaycan nümayəndə heyəti bütün məsələlər haqqında Lissabon sammitinin qərarlarından razıdır. Biz belə hesab edirik ki, Avropada təhlükəsizlik və əməkdaşlıq işində daha bir böyük addım atılmışdır". Bu fikirləri 3 dekabr 1996-cı ildə ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Lissabonda görüşü başa çatdıqdan sonra Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev mətbuat konfransında bəyan edib.

Bildirib ki, bu görüşə Azərbaycanla, bütün regionumuzla bilavasitə bağlı olan məsələdə ölkənin mövqeyini açıqlamaq üçün gəlmişəm. Sizə məlumdur ki, Ermənistanla Azərbaycan arasında münaqişə artıq səkkiz ildir davam edir. Bu münaqişəyə Ermənistan Respublikası Azərbaycanın Dağlıq Qarabağ bölgəsini ilhaq etmək, Ermənistana birləşdirmək məqsədilə başlamışdır. Münaqişəni aradan qaldırmaq üçün hələ 1992-ci ildə ATƏT çərçivəsində Minsk qrupu yaradılmışdır: "Azərbaycan tərəfi bu münaqişənin dincliklə aradan qaldırılması mövqeyində durur. 1994-cü ilin mayında atəşin dayandırılması haqqında saziş imzalanmışdır. Bizim tərəfimizdən ona indiyədək əməl edilir". Azərbaycan Prezidenti vurğulayıb ki, Sammit bax beləcə, əsas sənədin qəbul edilməsi ilə başa çatdı. Biz ondan razıyıq ki, ATƏT-in sammiti Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün ATƏT-in əsas prinsiplərini, xüsusən Azərbaycanın ərazi bütövlüyünün tanınması baxımından bir daha dəstəklədi.

Onu da qeyd etmək lazımdır ki, Sammitdə çıxış edən ümummilli lider Heydər Əliyev Ermənistanın işğalçılıq siyasətini kəskin pisləmiş, bu ölkənin əzəli Azərbaycan torpağı olan Qarabağı öz əlinə keçirmək məqsədilə respublikamıza qarşı təcavüz etdiyini, bunun nəticəsində ölkə ərazisinin iyirmi faizinin işğal olunduğunu qətiyyətlə vurğulamışdı. Lissabon sammitinin yekun sənədində münaqişənin həllinin əsasını təşkil etməli olan prinsiplər tövsiyə edilmiş, ATƏT-in 53 üzv dövləti arasında bu təklifin əleyhinə səs verən yeganə dövlət Ermənistan olmuşdu. Yəni Ermənistan konsensus prinsipindən suiistifadə edərək zirvə toplantısının bəyannaməsində öz əksini tapmış müddəalardan birinə - münaqişənin həlli prinsiplərini özündə ehtiva edən 20-ci maddəyə veto qoymuşdu. Ulu öndər Heydər Əliyev isə həmin maddənin bəyanatın mətnindən çıxarılmasına qəti etirazını bildirərək sammitin bütün sənədlərinə veto qoyacağını bəyan etmişdi. Uzun və gərgin müzakirələrdən sonra 20-ci maddədə öz əksini tapmış bütün prinsiplərin ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi bəyanatında təsbit olunması barədə konsensus əldə edilmişdi.

Bəyanatda deyilirdi: "Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin tərkib hissəsi olacaq 3 prinsipi tövsiyə etmişlər. Bu prinsipləri Minsk qrupunun üzvü olan bütün ölkələr müdafiə edirlər". Burada münaqişənin həlli məsələsi ilə əlaqədar Azərbaycanın milli mənafelərinə uyğun məsələlər və ölkəmizin ərazi bütövlüyünə qətiyyətli dəstək öz əksini tapmışdı. Ulu öndər sammitdən sonra bəyanatla çıxış edərək vurğulamışdı ki, sədrin bu bəyanatı Ermənistandan savayı, bütün sammit iştirakçılarının - ATƏT üzvlərinin iradəsinin ifadəsi olmuşdur: "... Biz ondan razıyıq ki, Flavio Kottinin bu bəyanatı, Ermənistan istisna olmaqla, ATƏT-in bütün üzvləri adından verilmişdir". Beləliklə, Heydər Əliyev Azərbaycanın siyasi iradəsini, diplomatik gücünü bütün dünyaya, o cümlədən işğalçı Ermənistana göstərmişdi. Hətta o zaman işğalçı ölkənin prezidenti olan Levon Ter-Petrosyan Lissabon sammitinin nəticələrindən bəhs edərkən bu zirvə görüşünü Azərbaycanın diplomatik nailiyyəti və üstünlüyü kimi xarakterizə etmişdi.

Prezident Heydər Əliyev Lissabonda olarkən zirvə görüşündə fəaliyyəti və Dağlıq Qarabağ münaqişəsi barədə Rusiya, Türkiyə, Portuqaliya, Danimarka və Birləşmiş Ərəb Əmirlikləri televiziyalarına da müsahibə verib. Rusiyanın "Vesti" informasiya-televiziya proqramının müxbiri ilə söhbətində o, baş nazir Çernomırdinin timsalında Rusiyanın ATƏT sədrinin məlum bəyanatını müdafiə etdiyini yenidən təsdiqləsə də, ATƏT-in Qarabağ münaqişəsinin həllində rolunu irəli çəkib. Danimarka televiziyasına müsahibəsində Heydər Əliyev Qarabağ münaqişəsi haqda ümumi məlumat verib və Lissabon zirvə görüşündə danışıqlara müvafiq mandat aldıqlarını hesab etdiyini bildirib. Portuqaliya televiziyası müxbirinə müsahibəsində Azərbaycan dövlət başçısı yenidən Rusiyanın təsiri məsələsinə qayıdaraq onun Ermənistanla əlaqələrinin fəal olduğunu bildirib.

Azərbaycanın dövlət başçısı Bakıya qayıtdıqdan sonra 1996-cı il 6 dekabrda ictimaiyyət nümayəndələri ilə görüşündə ATƏT-in Qarabağ münaqişəsinin həlli istiqamətində Budapeşt sammitindən Lissabon görüşünə qədər keçdiyi yolu ətraflı təsvir edib. Prezident bildirib ki, Böyük Sülh Sazişinin əldə edilməməsi Ermənistanın işğal etdiyi ərazilərdən istifadə edərək Dağlıq Qarabağa müstəqillik statusu almaq cəhdindən irəli gəlir. O, məsələnin həlli üçün göstərilən prinsiplərin qəbul olunması məqsədilə Lissabon sammiti ərəfəsində ATƏT üzvü ölkələrinin dövlət və hökumət başçılarına məktublar göndərdiyi haqda məlumat verib. Cavabında isə onlar tərəfindən Azərbaycanın mövqelərinin müdafiə olunduğunu bildirilib.

Ulu öndər Heydər Əliyev ayrıca olaraq ABŞ prezidenti Bill Klintona da məktub göndərərək təkliflərlə razılaşdığını vurğulayıb. Lissabon qərarını erməni təbliğatına da zərbə hesab edib. Zirvə görüşündə baş verən veto qarşıdurmasından sonra isə bu münaqişə ilə bağlı iştirakçı dövlət rəhbərlərinin maraqlandığını, eyni zamanda sammitin fəaliyyətini izləyən dünya miqyaslı mətbuat orqanlarına da münaqişə haqda məlumatların verildiyini bildirib. Prezident Heydər Əliyev mətbuat nümayəndələrinə Lissabon sənədinin danışıqlarda yeni mərhələ açdığını bir daha elan edib: "Lissabon Zirvə görüşünün Azərbaycan üçün böyük əhəmiyyəti bir də ondan ibarətdir ki, biz həmin toplantıda Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini açıb həm Zirvə görüşünün iştirakçılarına, həm də bütün dünya ictimaiyyətinə bildirdik".

Ötən əsrin 90-cı illərinin reallığında Azərbaycan dilomatiyasının qazandığı Lissabon uğuru ulu öndər Heydər Əliyevin zəkası və diplomatik məharəti hesabına mümkün olub. Lissabon qələbəsi gələcək nizamlama prosesinin əsasını təşkil edəcəyinə əminlik yaratdı. Heydər Əliyevin Lissabon uğuru bir daha təsdiq etdi ki, ulu öndər Azərbaycanın qarşılaşdığı problemlərlə yanaşı, regional və qlobal problemləri də gündəmə gətirirdi. Məhz bu baxımdan onun dövlətlərarası dialoq məsələləri ilə bağlı fikirləri bu gün də dünyanın bir çox regionlarında amansız müharibələrin qızışdığı bir vaxtda aktuallığını qoruyub saxlayır.

Mustafa KAMAL,
"Respublika".